Səh. 2 Nəfsin susdurulduğu, qürurun sındırıldığı an – Hacı Bəkiroğlu
Səh. 5 Özümlə müsahibə – Müdvər Nemətova
Səh. 6 Epşteyn biabırçılığı – Afaq Azər
Səh. 7 Kədərin bağladığı doğmalıq – Esmira Ələkbərli
Səh. 3 İslahat, yoxsa yenidən bölgü – Çiyalə Osmanova
Səh. 4 BU İL İSA İSMAYILZADƏNİN ANADAN OLMASININ 85-Cİ İLDÖNÜMÜDÜR
Səh. 7 Yeməklə doymayan yeməyin şəklini çəkməklə doymaz – Validə Fətullayeva

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 FEVRAL
2026-Cİ İL
№ 03 (243)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## BAŞ NAZİR: XARİC TƏLƏBƏLƏR ÜÇÜN PROQRAMIN LƏĞVİ GÜRCÜSTAN İQTİSADİYYATINA, DÖVLƏT BÜDCƏSİNƏ VƏ MƏŞĞULLUQ GÖSTƏRİCİLƏRİNƏ CİDDİ ZİYAN VURARDI



Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib ki, xarici tələbələr üçün proqramların ləğv edilməsi Gürcüstanın iqtisadiyyatına, dövlət büdcəsinə və məşğulluq göstəricilərinə ciddi ziyan vurardı.

Bu barədə o, Gürcüstanda miqrasiya sahəsində mövcud vəziyyət haqqında danışarkən qeyd edib.

Baş nazir vurğulayıb ki, ümumilikdə xarici tələbələrin Gürcüstan iqtisadiyyatına töhfəsi 1 milyard 200 milyon lari təşkil edir. Bu isə o deməkdir ki, onların xərcləri hesabına Gürcüstan büdcəsinə hər il təxminən 300 milyon lari daxil olur.

“Gürcüstanda 37000 xarici tələbə təhsil alır və onların əksəriyyəti Hindistan vətəndaşlarıdır. Tələbələrin 7 faizi İordaniyadan, 6 faizi İsraildən, 5 faizi Sudandan, 3 faizi Pakistan, 3 faizi isə Böyük Britaniya və Misirdəndir. Bir xarici tələbə təhsil haqqı olaraq ildə orta hesabla 15500 lari ödəyir və ölkə daxilində əlavə olaraq 16300 lari xərcləyir. Ümumilikdə xarici tələbələrin Gürcüstan iqtisadiyyatına töhfəsi 1 milyard 200 milyon lari təşkil edir ki, bu da onların xərcləri hesabına Gürcüstan büdcəsinə hər il təxminən 300 milyon lari daxil olması deməkdir. Bundan əlavə, onların hesabına Gürcüstanda 10 mindən çox iş yeri yaradılıb. Bu baxımdan, xarici tələbələr üçün proqramların ləğv edilməsi Gürcüstan iqtisadiyyatına, büdcəsinə və məşğulluq səviyyəsinə ciddi zərər vurardı. Burada onu da qeyd etmək lazımdır ki, tələbələr diplomu əldə edən kimi ölkəni tərk edirlər. Bu səbəbdən, onlar Gürcüstanın demoqrafik vəziyyəti üçün heç bir risk yaratmırlar”, – deyə hökumət başçısı bildirib.

## MARTIN 1-DƏN GÜRCÜSTANDA ƏCNƏBİLƏRİN İŞƏ GÖTÜRÜLMƏSİ MƏHDUDLAŞDIRILACAQ

Bu il martın 1-dən Gürcüstanda əcnəbilərin işə götürülməsi əhəmiyyətli dərəcədə məhdudlaşdırılacaq. Bu barədə Baş nazir İrakli Kobaxidze məlumat verib.

Onun sözlərinə görə, müvafiq qanun həm ölkə iqtisadiyyatının, həm də vətəndaşların maraqlarını lazımi səviyyədə qorumağa imkan verəcək və hökumət bu qanunun effektiv tətbiqi üçün məsuliyyəti öz üzərinə götürür.

Bundan əlavə, Baş nazir Daxili İşlər Nazirliyinin Miqrasiya İdarəsinin son 1 ildə daha çox qanunsuz miqrantı deportasiya etdiyini vurğulayıb.

“Miqrasiya Departamentinin işinin gücləndirilməsi ölkəni hazırda sayı 20 mini keçən qanunsuz miqrant-




lardan tamamilə xilas etməyə imkan verəcək. Bundan əlavə, 2017-ci ildə hökumətimiz Gürcüstan Konstitusiyasına dəyişiklik edərək kənd təsərrüfatı torpaqlarının əcnəbilərə verilməsini qadağan etdi. Gürcüstanın milli və dini kimliyini qorumaq ən vacib milli vəzifələrimizdən biridir və Gürcüstan hökuməti buna nail olmaq üçün hər şeyi edəcək”, – deyə İ.Kobaxidze bildirib.

## İSTİSMAR MÜDDƏTİ 6 İLDƏN ÇOX OLAN AVTOMOBİLLƏRİN İDXALI QADAĞAN OLUNA BİLƏR

Gürcüstan hökuməti 6 ildən çox istismar müddəti olan nəqliyyat vasitələrinin ölkəyə idxalını qadağan edən qanun layihəsini parlamentə təqdim edib. Bu barədə ölkənin Baş naziri İrakli Kobaxidze hökumətin iclasında məlumat verib.

O, bildirib ki, təşəbbüs ekoloji vəziyyətin yaxşılaşdırılması, əhalinin sağlamlığının qorunması və şəhərlərdə nəqliyyat hərəkətinin daha rahat təşkili məqsədi daşıyır.

İ.Kobaxidzenin sözlərinə görə, son illər ölkədə nəqliyyat vasitələrinin sayı kəskin şəkildə artıb, 2012-ci ildə Gürcüstanda 864 min nəqliyyat vasitəsi qeydiyyatda olubsa, hazırda bu göstərici 2 milyonu keçib.

Baş nazir qeyd edib ki, avtomobillərin sayındakı bu artım bir tərəfdən yol tıxaclarının yaranmasına, digər tərəfdən isə eko-



loji vəziyyətin pisləşməsinə səbəb olur.

“Hesab edirik ki, bu sahədə əlavə və vacib tədbirlərin görülməsi zəruridir. Bu məqsədlə 6 ildən artıq yaşı olan nəqliyyat vasitələrinin idxalına qadağa qoyulmasını nəzərdə tutan qanun layihəsi parlamentə təqdim olunub. Kiçik istisnalar da nəzərdə tutulacaq. Bu addım ekologiya, insanların sağlamlığı və rahat hərəkətinin təmin edilməsi baxımından vacibdir”, – deyə Baş nazir bildirib.



# NƏFSİN SUSDURULDUĞU, QÜRURUN SINDIRILDIĞI AN

Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

Nəfs insanın daxilində bitmək bilməyən bir istəkdir. O, doymaq bilməyən bir aclığa bənzəyir: daha çox mal-dövlət, daha çox şöhrət, daha çox ləzzət arzulayır. İnsan bu istəklərin ardınca qaçdıqca elə zənn edir ki, xoşbəxtlik bir az da irəlidədir. Lakin hər əldə edilən nemətdən sonra yeni bir arzu baş qaldırır. Beləcə, nəfs insanı daim narahatlıq və çatışmazlıq hissi içində saxlayır. Bu yolun sonu isə çox vaxt peşmanlıq olur. İnsan bir gün geri dönüb baxanda görür ki, həyatının ən dəyərli anlarını – ailəsi ilə keçirdiyi vaxtı, dostluqları, mənəvi rahatlığı dünya malının arxasıyca qaçarkən itirib. Nəfsin əsiri olan kəs heç vaxt həqiqi rahatlıq tapmır. Çünki nəfsin istəkləri sonsuzdur və o, insanı daim daha artığını istəməyə sövq edir. Halbuki həqiqi zənginlik insanın sahib olduqlarına şükür etməsində və qəlb rahatlığında gizlidir.

Qürur isə nəfsin başqa bir təzahürüdür. Qürur insanın özünü ucaldaraq başqalarını kiçiltməsidir. Belə insan özünü digərlərindən üstün görür, başqalarının uğurunu qəbul etməkdə çətinlik çəkir və tənqidi qəbul edə bilmir. Nəticədə isə getdikcə tək qalır. Çünki heç kim özünü dəyərsiz hiss etdiyi bir mühitdə qalmaq istəmir. Qürur insanı həm mənəvi, həm də sosial baxımdan zəiflədir. O, insanın qəlbini sərtləşdirir, münasibətlərini korlayır və daxili sükunətini əlindən alır. Əsl güc başqalarını alçaltmaqda deyil, onları dəyərləndirməkdədir. Həqiqi böyüklük təvazökarlıqda, başqalarına hörmətlə yanaşmaqda və öz qüsurlarını görüb düzəltmək cəhdindədir.

Nəfsə hakim olmaq və qüruru cilovlamaq insanın ən böyük daxili mübarizəsidir. Bu mübarizədə qalib gələn insan həm dünyada, həm də axirətdə rahatlıq tapar. Çünki o zaman insanın qəlbi maddi ehtirasların və süni üstünlük hissinin deyil, iman, şükür və təvazökarlığın təsiri altında olar.

Bu daxili mübarizənin ən gözəl məktəblərindən biri Ramazandır. Ramazan ayı sadəcə aclıq və susuzluq deyil, nəfsin tərbiyə olunduğu, qürurun sındırıldığı ilahi dərsdir. Oruc insanın içindəki "istəyirəm" səsini zəiflədir, "səbir edirəm" iradəsini gücləndirir. Gün boyu halal olan nemətlərdən belə uzaq qalmaq insana göstərir ki, o, nəfsinin qulu deyil, əksinə, nəfsinə hökm edə bilən bir varlıqdır.

Nəfs daim rahatlıq, ləzzət və bolluq axtarır. Oruc isə ona sərhəd qoyur. Aclıq insanın zəifliyini xatırladır, onu təkəbbürdən uzaqlaşdırır. Günün sonunda bir tikə çörəyin, bir udum suyun nə qədər böyük nemət olduğunu dərk edən insan artıq israfdan uzaq durur. Bu, nəfsin qırılması, qəlbin yumşalması deməkdir.

Ramazan süfrələri də qürurun əridiyi məkanlardır. İftar vaxtı varlı-kasıb, vəzifəli-vəzifəsiz, tanınmış-tanınmamış eyni süfrə ətrafında oturur. O an hər kəs eyni aclığı yaşamış, eyni susuzluğu hiss etmiş olur. Süfrədə üstünlük nə mala, nə ada, nə də vəzifəyə görədir. Hər kəs bir xurma ilə orucunu açır və eyni şükür sözlərini deyir. Bu mənzərə insana xatırladır ki, insanı ucaldan dünyəvi mövqeyi deyil, Allah qarşısındakı halıdır.

Təravih namazında isə bu bərabərlik daha aydın görünür. Hamı eyni səfdə çiyin-çiyinə dayanır. Orada nə vəzifə fərqi var, nə də maddi imkan üstünlüyü. Hamı eyni qibləyə yönəlir, eyni ayələri dinləyir, eyni səcdəyə qapanır. Səcdə insanın qürurunu sındıran ən böyük həqiqətdir. Çünki insan alnını yerə qoyduğu anda anlayır ki, əsl böyüklük yalnız Allaha məxsusdur.

Ramazan bizə öyrədir ki, nəfsə qalib gəlmək mümkündür. Qüruru tərk edib təvazökarlığı seçmək mümkündür. Oruc sadəcə maddi aclıq deyil, mənəvi yüksəlişdir. Əgər Ramazan ayı bitdikdən sonra insanın nəfsi bir qədər sakitləşmiş, qəlbi bir qədər yumşalmış, qüruru bir qədər azalmışdırsa, demək ki, oruc öz məqsədinə çatmışdır.

Beləliklə, Ramazan nəfsin susdurulduğu, qürurun sındırıldığı və insanın öz həqiqi dəyərini dərk etdiyi bir aya çevrilir. Bu ayı doğru yaşayan insan isə yalnız aclıq çəkmir – o, dəyişir, saflaşır və daxilən güclənir.

Hər birinizə mənəvi bolluqla keçən bir Ramazan ayı diləyi ilə...

# VİCDANIN İFLASI



Gündəmi çalxalayan yeni bir xəbər var və bu dəfə məsələ nə pandemiyadır, nə müharibə, nə qəza, nə də təbii fəlakət, bu, insanın insana qarşı nə qədər qəddar ola bildiyini açıq şəkildə göstərən bir mövzudur. Elə bir mövzudur ki, oxuduqca adamın ürəyi bulanır, qəlbində bir yanğı yaranır və bu yanğını necə, nə ilə söndürəcəyini bilmirsən, çünki burada dağılan yollar, evlər və ya şəhərlər deyil, dağılan bir anlayışdır – insanlıq anlayışı.

Bu xəbər qorxulu olduğu üçün deyil, iyrəndirici olduğu üçün ağırdır. Çünki söhbət ən zəif, ən müdafiəsiz olanlardan gedir – uşaqlardan. Onlar bu dünyanın ən məsum varlıqlarıdır və məhz buna görə də baş verənlər insanın boğazında düyün olub qalır. Uşaqlar bu dünyaya gələndə onların heç bir planı olmur, nə pislikdən xəbərləri var, nə də böyüklərin içində gizlətdiyi qaranlıqdan, onlar sadəcə inanırlar və bu inam bəlkə də insan həyatında olan ən kövrək, eyni zamanda ən dəyərli hissdir.

Epşteyn adı ilk dəfə gündəmə gələndə bu adın arxasında bu qədər qaranlıq olacağını düşünməmişdim. Oxuduqca, dinlədikcə insanın lap damarda axan qanı donur. Bir anlıq təsəvvür et: səni qoruyacağını düşündüyün dünya, əslində, səni satır.

Bu hadisəni fərqli edən odur ki, onun arxasında nə xaos, nə aclıq, nə də fövqəladə vəziyyət dayanır. Burada rolları güc, pul və susdurulmuş vicdanlar oynayır. Epşteyn ətrafında açılan bu qaranlıq pərdə bir nəfərin adı ilə məhdudlaşmır, əksinə, uzun illər boyu görüb susan, bilib göz yuman, toxunulmazlıq yaradan bir sistemin varlığını üzə çıxarır.

Ən ağrılı tərəfi isə uşaqların bu hekayədə sadəcə səssiz fiqurlar olmasıdır. Dilsiz-ağızsız günahsız körpələr, onlar başlarına gələnləri qəzet başlığına çevirə bilmirlər, kameraların qarşısında danışa bilmirlər, hüquqi terminlərlə öz ağrılarını ifadə edə bilmirlər. Onlar sadəcə susurlar. Amma bu susqunluq heç də sakitlik demək deyil. Bu, qorxunun ən dərin formasıdır. Və çox vaxt böyüklər bu sükutu rahatlıqla görməzdən gəlirlər.

Cəmiyyət olaraq ən böyük səhvlərimizdən biri də budur: uşaq susanda hər şeyin qaydasında olduğunu düşünürük. Halbuki uşaq susursa orada artıq çox gecikmiş bir problem var. Çünki uşaqlar başlarına gələn zülmü unutmur, sadəcə onunla böyüməyi öyrənirlər. Bədən böyüyür, illər keçir, amma içəridə qırılmış bir yer qalır və bu qırıq çox vaxt insanın bütün həyatına yayılır.

Bu cür xəbərlər ortaya çıxanda bir anlıq sarsılırıq, "dəhşətdir" deyirik, amma bir müddət sonra həyat yenidən öz axarına qayıdır. Halbuki həmin hadisəni yaşayanlar üçün heç nə əvvəlki kimi olmur. Onlar üçün dünya artıq təhlükəsiz yer olmur. Və ən acısı da budur ki, bu vəziyyət çox vaxt təkcə onların problemi kimi qəbul edilir.

Bu məsələ tək bir ölkənin, tək bir sistemin, tək bir adın problemi deyil. Bu, bütün dünyanın problemidir. Çünki uşağa edilən hər bir zülm, harada baş verməsindən asılı olmayaraq, insanlığın ortaq məğlubiyyətidir. Əgər bir cəmiyyət uşaqları qoruya bilmirsə, o cəmiyyət nə qədər inkişafdan, dəyərlərdən, hüquqlardan danışsa da içi boş sözlərdən o yana keçmir.

Bu mövzunu ağır edən təkcə hadisənin özü deyil, həm də onun bizə tutduğu güzgüdür. O güzgü ki, biz onda özümüzü görürük – nə qədər tez unutduğumuzu, nə qədər rahat susduğumuzu, nə qədər tez "mənlik deyil" deyib kənara çəkildiyimizi. Halbuki susmaq da bir mövqedir və çox vaxt şərin ən güclü dayağı məhz bu mövqedir.

Uşaqları qorumaq məsuliyyətdir. Bu, qanunların kağız üzərində qalması ilə yox, işləməsi ilə mümkündür. Bu, adların, vəzifələrin, əlaqələrin arxasında gizlənən toxunulmazlığın dağıdılması ilə mümkündür. Əks halda, bu cür hadisələrin başlığı dəyişsə də, mövzuları dəyişməyəcək.

Bu yazılar rahat oxunsun deyə yazılmır. Bu yazılar oxuyanı narahat etsin deyə yazılır. Çünki bəzən narahat olmaq lazımdır. Bəzən vicdanın yanması lazımdır. Uşaqlar qorxarkən bizim rahat olmağımız normal deyil.

Əgər bu xəbərlər bizdə hələ də qəzəb, utanc və məsuliyyət hissi yaradırsa, deməli, hər şey tam itirilməyib. Amma əgər bir gün bunları oxuyub laqeyd qala bilsək, onda artıq problem təkcə xəbərlərdə yox, bizdə olacaq.

Bu cür hadisələr insanı istər-istəməz düşündürür, necə olur ki, bir uşağın qorxusu bu qədər adamın gözündən yayınır, necə olur ki, böyüklərin rahatlığı, mövqeyi və ya maraqları bir uşağın təhlükəsizliyindən daha önəmli ola bilir, axı necə?!

**Aytən Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 3-cü kurs tələbəsi*

# İSLAHAT, YOXSA YENİDƏN BÖLGÜ



Universitet dünyanın bütün ölkələri üçün sadəcə diplom verən müəssisə deyil, dövlətçilik, mədəniyyət, intellektual müstəqillik simvoludur və güman ki, Gürcüstan üçün də belədir. Bu isə tarixi yaddaş fonunda ali təhsil sahəsində atılan hər yeni addımda istər-istəməz daha yüksək gözlənti və daha ciddi məsuliyyət yaradır. Çünki universitet siyasətin yox, gələcəyin institutudur. O, yalnız kadr hazırlamır, həm də cəmiyyətin düşüncə sərhədlərini müəyyənləşdirir, dəyərlər sistemini formalaşdırır və intellektual istiqamətini təyin edir. Məhz buna görə də ali təhsil sahəsində aparılan hər struktur dəyişikliyi texniki idarəetmə qərarı kimi deyil, strateji seçim kimi qiymətləndirilməlidir. Universitetlərin necə maliyyələşdirilməsi, hansı ixtisasların prioritet sayılması, qəbul siyasətinin hansı prinsiplərlə qurulması və s. – bütün bunlar dövlətin gələcək modeli haqqında dolayı, amma aydın mesaj verir. Bu mesajı daha yaxşı anlamaq üçün və dəyərləndirmək üçünsə statistikaya, qəbul planlarına, tətbiq olunan inzibati mexanizmlərə və yeni təhsil islahatına diqqətlə baxmaq kifayətdir.

Gürcüstanın Baş nazirinin son qərarına əsasən isə, 2026–2027-ci tədris ili, yəni cari il üçün qəbul yerlərinin sayı 21300 olaraq müəyyən edilib. Məhz bu kontekstdə yeni tədris ili üçün qəbul yerlərinin sayının bu qədər müəyyən edilməsi, fakültələrin “Bir şəhər – bir fakültə” prinsipi əsasında bölüşdürülməsi və hökumətin dövlət universitetlərində proqram kvotalarını birbaşa təsdiqləməsi ciddi müzakirə doğurur. Rəqəmlərə baxanda ilk baxışda texniki optimallaşdırma təsiri bağışlayır. Lakin məsələ təkcə statistika deyil, bu qərar ali təhsil fəlsəfəsinin dəyişməsi deməkdir. Çünki keçən ilin statistik göstəricilərinə nəzər saldıqda görürük ki, 2025-ci ildə Gürcüstan üzrə ali təhsil müəssisələrinə 31704 abituriyent qəbul olunub. Onlardan 21538 nəfəri dövlət universitetlərinə daxil olub. Halbuki 2026-2027-ci il üçün dövlət ali təhsil müəssisələrində qəbul yerlərinin sayı 21300 olaraq müəyyən edilib. Üstəlik, əvvəlki il dövlət universitetlərində elan olunmuş yerlərin doluluq səviyyəsi 79 % təşkil edirmiş. Bu o deməkdir ki, real qəbul rəqəmi elan olunan kvotadan da aşağı ola bilər. Burada paradoks yaranır ki, bir tərəfdən hökumət qəbul kontingentinin “təxminən 2000 nəfər artırıldığını” bildirir, digər tərəfdən ümumi yerlərin ötən ilin faktiki qəbulundan az olduğu görünür. Ali təhsil islahatı doğrudan da riyaziyyat dərsləri ilə başlamalı idi desək yanılmış olmarıq, çünki bu məsələ orta məktəbdə “ata və oğulun yaş məsələsinə” oxşayır. Bu tutuşmazlıq ya statistik manipulyasiya, ya da planlaşdırma ilə bağlı ciddi uyğunsuzluq deməkdir.

Əgər təhsil islahatına yenidən nəzər salmalı olsaq görərik ki, hökumətin əsas arqumentlərindən biri ali təhsilin həddindən artıq coğrafi mərkəzləşməsi idi. Tələbələrin 85 faizindən çoxunun Tbilisidə təhsil alması regionların boşalmasına, daxili miqrasiya və paytaxtın yüklənməsinə səbəb olan problem kimi göstərilmişdi. Bundan irəli gələrək “Bir şəhər – bir fakültə” prinsipi üzrə universitetlərdə fakültələri azaltmağa başlayıblar. İndi insanda sual yaranır: bu məqsədə inzibati kvotalarla və fakültələrin məcburi bölgüsü ilə nail olmaq mümkündürmü? Məsələn, İlia Dövlət Universitetinə yalnız pedaqogika proqramları və ABET akkreditasiyalı STEM ixtisasları üzrə qəbul elan etmək icazəsinin verilməsi, digər proqramların faktiki qadağan edilməsi nə dərəcədə akademik əsaslara söykənir? Əgər müəyyən sahələr üzrə yalnız bir dövlət universiteti fəaliyyət göstərəcəksə, bu, faktiki olaraq monopoliyaya yaxın model yaradır. Monopoliya isə təhsildə ən təhlükəli mexanizmlərdən biridir. Bu mexanizmdə keyfiyyətin azalması, alternativ baxışların zəifləməsi və intellektual durğunluq riski artır. Həmçinin eyni şəhərdə bir neçə dövlət universitetində eyni ixtisasların paralel mövcudluğu maliyyə və kadr resurslarının parçalanmasına səbəb olur. Bu arqument rasional səslənir. Lakin rəqabətin ləğvi keyfiyyətin avtomatik artımı demək deyil. Əksinə, rəqabət mühiti çox vaxt innovasiya və akademik dinamikanın əsas şərtidir.

Bu haqda İlia Universitetinin rektoru Nino Doborcqinidze və kansler Ketevan Daraxvelidze çıxış ediblər. Onların reaksiyası hər nə qədər emosional olsa da, tamamilə əsassız deyil. Onların vurğuladığı əsas məqam universitet muxtariyyətinin pozulmasıdır və bunda haqlıdırlar. Əgər dövlət universitetlərin hansı proqram üzrə tələbə qəbul edəcəyini detallı şəkildə müəyyən edirsə, bu, institusional muxtariyyət anlayışını formal hala gətirir.

Bu günlərdə İlia Universitetində tələbələr etiraz aksiyası elan edib və bəzi fəallar inzibati həbsə məruz qalıblar. Bu cür qarşıdurmalar və etiraz aksiyaları məsələni daha da siyasiləşdirir. Lakin məsələyə digər tərəfdən baxdıqda tələbələrin narahatlığını anlamaq çətin deyil. Onlar yalnız üç şey istəyirlər: şəffaflıq, seçim azadlığı və akademik azadlığın qorunması. Onlar istəyirlər ki, qəbul qaydaları və proqramların ixtisarı barədə qərarlar açıq və əsaslandırılmış olsun, yalnız inzibati qərarlarla qəbul edilməsin. Tələbələr həmçinin universitetin ənənəvi və uğurlu proqramlarının qorunmasını tələb edirlər, çünki bu proqramlar onların gələcək karyera imkanlarına birbaşa təsir edir. Onların etirazı göstərir ki, yalnız paytaxt universitetlərinin inzibati maraqları ilə deyil, həm də tələbələrin ehtiyacları və seçimi nəzərə alınmalıdır. Tələbələr həmçinin universitetin muxtariyyətinə hörmət olunmasını istəyirlər. Sadəcə desək, tələbələr istəyirlər ki, ali təhsil sistemində qərarlar təkcə idarəetmə tərəfindən deyil, həm də universitet icması və ictimaiyyətin baxışı nəzərə alınaraq qəbul edilsin. Onlar etiraz edərək göstərir ki, islahatın legitimliyi yalnız rəsmi sənədlərlə deyil, həm də tələbələrin iştirakı və ictimai dəstək ilə təmin edilir. Universitet yalnız əmək bazarı üçün kadr hazırlayan zavod deyil. O, tənqidi düşüncə, vətəndaş mövqeyi və elmi yaradıcılıq formalaşdıran mühitdir və hər zaman ictimai debatın məkanı olub. Əgər ali təhsil islahatı geniş ictimai və akademik müzakirə olmadan həyata keçirilirsə və etirazlar inzibati tədbirlərlə müşayiət olunursa, bu, islahatın legitimliyinə kölgə salır.

Şəxsən mənim mövqeyim birmənalı deyil. Mən ali təhsil sistemində islahatın zəruri olduğuna inanıram. Gürcüstanda universitetlərin keyfiyyəti arasında ciddi fərqlər mövcuddur, resurslar optimal istifadə olunmur, tədqiqat və tədris arasında əlaqə zəifdir. Lakin islahatın istiqaməti və üsulu ən azı məqsədi qədər vacibdir. Əgər islahat akademik ictimaiyyətlə dialoq olmadan, əsasən inzibati qərarlarla həyata keçirilirsə, bu, struktur problemləri həll etməklə yanaşı, yeni problemlər də yarada bilər. Universitet muxtariyyəti formal anlayışa çevrilərsə, uzunmüddətli perspektivdə elmi mühit zəifləyə bilər. Ən böyük risk isə gənclərin gözləntiləri ilə bağlıdır. 31 mindən çox abituriyentin ali təhsilə daxil olduğu bir ölkədə qəbul yerlərinin azalması, proqramların məhdudlaşdırılması və qeyri-müəyyənlik atmosferi gənclərdə alternativ axtarış meyillərini gücləndirə bilər. Bu alternativ isə çox vaxt xaric olur. Əgər ali təhsil islahatı nəticəsində regionlar güclənər, keyfiyyət yüksələr və əmək bazarı ilə real əlaqə qurularsa, bu, tarixi fürsət ola bilər. Lakin əgər nəticə rəqabətin azalması, muxtariyyətin zəifləməsi və siyasi təsirin artması olarsa, Qafqazda ilk universiteti açmış ölkə öz ən güclü ənənəsi olan akademik azadlıq və intellektual plüralizm ruhuna zərbə vurmuş olar.

Sonda isə onu deyə bilərəm ki, ali təhsil siyasəti rəqəmlərlə ölçülür, amma nəticələri insan talelərində görünür. Bu gün qəbul kvotaları haqqında verilən qərarlar sabahın müəllimlərini, mühəndislərini, alimlərini və vətəndaşlarını formalaşdıracaq. İslahatın uğuru yalnız inzibati effektivliklə deyil, universitet auditoriyalarında qorunan azad fikir və sağlam rəqabətlə ölçüləcək. Əks halda, biz struktur dəyişikliyi adı altında sistemin ruhunu itirə bilərik.

**Çiyalə Osmanova**
*Tbilisi Dövlət Universitetinin Sosial və siyasi elmlər fakültəsinin 2-ci kurs tələbəsi*

# BU İL İSA İSMAYILZADƏNİN ANADAN OLMASININ 85-Cİ İLDÖNÜMÜDÜR



Bundan öncə İsa İsmayılzadə barədə yazı yazdım. Əslində, məktəbi bitirəndən sonra Bakıda universitetdə oxumaq istəyirdim. Qəbul olunmadım. Orada qaldım. Fəhlə olaraq işləyəndə onun "Sovet Gürcüstanı" (indiki "Gürcüstan" ) qəzetində "Torpaq nəğməsi" şeirlər toplusu barədə yazı yazdım. Gürcüstan radiosunda işə başlayanda onun şeirlərini öz ifasında müntəzəm səsləndirirdim. Arada yazı da yazırdım. Deməyim odur ki, İsa İsmayılzadə mənim üçün tükənməz mövzudur.

Mən deyərdim ki, İsa poeziya üçün doğulmuşdu. Göbəyi poeziyanın adına kəsilmişdi. Poeziya onun alnına yazılmışdı. Güllələrin, lülələrin, qəlpələrin bığ yeri yenicə tərləyən kənd oğullarının geri qayıtmasını deməsə də sağ qayıdanlar olardı. Amma İsa yazmasa idi ölərdi. Necə ki, alman şair və publisist Heyne deyib: "Əgər yazmasan ölməyəcəksənsə, yazma". İndi əlinə qələm alan şeir yazır. Poeziyanın nə olduğunu bilmədən qafiyələrin sorağında özünə cəfa verir, özünü öldürür.

"İşıqlı yarpaqlar" şeirindən bir bəndi nümunə gətirmək istəyirəm:

*Yarpaqlar lampa tək alışıb-yanır*
*meşənin ağac – otaqlarında.*
*İşığa bürünüb şahpalıd, çinar,*
*lampalar asılıb budaqlarından.*

Hər sətri bir tablodur. Və özözlüyündə onun bu bir şeiri geniş bir qalereyanı təşkil edir.

İndiki nəsil termosun nə olduğunu o qədər də bilməz. Ona soyuq su və ya çay doldurur, bir yana, tarlaya gedəndə aparardıq. Orada çölün düzündə bir ağacın kölgəsində yeməkdən sonra sərin su və ya çay içərdik.Termos istini isti, soyuğu soyuq saxlayardı. Ehtiyatsızlıq üzündən əlimizdən düşsə idi və bir yerə dəysə idi, içindəki gümüşvari parlaq şüşə çilik-çilik olardı. Termos daha yaramazdı. İsa özünə belə bir təşbeh gətirir:

*Mən bir termos şüşəsiyəm,*
*çilik-çilik olmuşam,*
*tökülmüşəm içimə.*
*(Eh, kimin nə vecinə)*
*Birinin gözlərindən,*
*birinin ürəyindən*
*qolaylanıb atılanda*
*tənhalığın üstünə düşüb sınmışam...*

İsa tənhalığın üstünə düşüb sınıb. Çilik-çilik olub. Öz içinə tökülüb. Bu çiliklər içindən çıxaraq, poetik süzgəcdən keçib duyğuya bükülərək deyilməmiş sözlərə çevrilir. Bu sözləri şair düzüb-qoşub öz mahnısını, etiraf mahnısını yaradır:

*Mənim boyum – yüz altmış dörd,*
*mənim sinəm – əlli beş.*
*Ürəyim də lap balaca.*

*Mən böyük sevincə alışmamışam,*
*Mən böyük sevincdə alışmamışam...*

Əslində, hara baxırsa, nəyi görürsə onun üçün nəğmədir. Vətən, torpaq, su, hava... nəğməsi. Çünki onları duyur, eşidir. Sükut belə duyulmasa da, eşidilməsə də onun üçün nəğmədir. Söz çələngidir. Elə üçüncü kitabının adı da "Torpaq nəğməsi"dir.

"Vətən nəğməsi" şeirində sevgi daha əhatəlidir. Artıq Azərbaycan ünvanlıdır:

*Axırsan çay kimi damarlarımda,*
*Çopur qayana da qaynayır qanım.*
*Böyüklü-kiçikli arzularım da*
*Adınla bağlıdır Azərbaycanım!*

Hara getsə, harada olsa, harada qərar tutsa könlündən həmişə Qarayazı keçib:

*Keçim Qarayazı düzənliyindən,*
*Qatım qabağıma ilğımlarını,*
*Aparıb, itirim çay qırağında...*
*Başım dumanlansın yovşan iyindən,*
*Axtarım bəstəboy ulğunlarını.*

*Keçim Qarayazı düzənliyindən...*
*Yəhərbel təpələr çıxsın qarşıma,*
*Gözümün önündə ilxıya dönsün.*
*Dəli qulun kimi qışqıran səma...*

Və yaxud:

*Hara getsəm, harda olsam,*
*Üzümü tutmasam Qarayazıya,*
*Üzümü tutmasam Borçalıya mən –*
*Elə mənim kimi darıxır şeirim,*
*Elə mənim kimi vurnuxur şeirim.*
*Elə bil, sözümü –*
*yazdıqlarımı*
*təkcə ona deyirəm.*

Orta məktəbi bitirən İsa İsmayılzadə oxumaq üçün Bakıya getdi. Universiteti bitirib Qarayazıya qayıtdı. Bir müddət oxuduğu məktəbdə müəllimlik etdi. Vücuduna daxil olan, iliyinə işləyən poeziya onu narahat buraxmadı. Yenidən Bakıya üz tutdu. Poeziya kəhkəşanına qovuşdu. Qələmə sarıldı. Duyğuları onun vasitəsilə ağ vərəqlərə köçürüldü. Bu vərəqlər qalaq-qalaq olurdu, kitablara çevrilirdi. Və arada ömründən bir qatar keçərdi. Bakı-Tbilisi, Tbilisi-Bakı.

*Onca ildə,*
*Vaqon pəncərəsindən*
*Boz çöllərə baxa-baxa*
*Gözləri yol çəkəcəkdi,*
*Duman kimi, yuxu kimi*
*Anam gəlib gedəcəkdi,*

*Onca ildə*
*Nəticə görəcəkdi, ana itirəcəkdi...*
*Sonra mənim toyumda*
*Əlləri ağır-ağır qalxacaqdı çiyninə*
*Ənzəli havasına...*
*Ömrümdən bir qatar keçər həmişə –*
*Bakı-Tbilisi, Tbilisi-Bakı...*

Və nəhayət, Qarayazıya gələr, həm özü sevinər, həm də ata-ananı, onu sevənləri sevindirər. Ana həsrətlə onu qucaqlayar, bağrına basar, sonra özünü ora-bura vurar, samovarı alışdırar. Ata isə yerindən tərpənməyərək siqaret çəkməyini təmkinlə davam etdirər. Şair bu mənzərəni şeirə çevirib:

*Ay ana, ay ata, ay doğma oba,*
*Siz mənə,*
*Siz mənə bir ömrü halal eləyin.*
*Bu gün gəlməsəm də, gələrəm sabah –*
*Siz mənə bir ömrü halal eləyin.*
*Qımışar, yerindən tərpənməz atam,*
*Ehmalca söndürər siqaretini.*
*İstərəm özümü üstünə atam,*
*Göz qoyar – gözləri saxlayar məni,*
*Əl verər – əlləri saxlayar məni.*
*İncik baxışları bircə anlığa*
*Başdan-ayağacan "yoxlayar" məni.*

İsanın sözlərinə mahnılar da bəstələnib. Zatən içindən duyğuları zümzümə ilə sözə çevirib. Bəziləri elə bilir ki, İsa sərbəst şeirlər yazır. Bəli, yazır. Məğzinə varsan, onlarda da ahəngin, ritmin olduğuna əmin ola bilərsən. "Yollar" şeiri isə mahnı olaraq oxunub:

*Getdin, görünmədin sən,*
*Susdu dünyam o gündən.*
*Ürəyimdə həsrətim*
*Sənsiz döyünür indi.*
*Qəribsədim, axı, sənsiz,*
*Yollar xəbər gətirmədi,*
*Səni mənə yetirmədi.*
*Haraylayım yolları,*
*Səni qaytasın, barı.*
*Gəl, əllərinlə ovut*
*Könlümdəki qubarı.*
*Əridim gilə-gilə,*
*Uzaqlardan əl-ələ.*
*Ayrılıqdan gizlənib.*
*Yenə verək əl-ələ.*
*Şəhərləri adla, gəl,*
*Bir quruca adla gəl.*
*Könlümdəki qubarı*
*Öz əlinlə odla, gəl!*
*Gecə niyə uzandı?*
*Yolların nə uzundu.*
*Bircə ümid qalmışdı,*
*O da sənsiz usandı.*

Əsasən sərbəst şeirlər yazan, hərdən-birdən nəzm nümunələrinə müraciət edən İsa İsmayılzadə oxucularını heyrətləndirir. Məni dağlara aparın deyən şair hələ bir gəraylı da yazıb:

*Qıyya çəksəm, atıb-tutar,*
*Dərələr səsimi udar.*
*Qayalar əlimdən tutar –*
*Yıxılmağa qoymaz məni.*

Bəli, dağlar onu qoymazdı yıxılmağa. Bu dağların əzəmətliliyindən, ucalılığından, xarakterindən irəli gəlir. Ağır xəstəlik, vaxtsız ölüm onu yıxdı, onun poetik aləmini alt-üst etdi, poeziya dünyası çilik-çilik oldu. Amma o çilik-çilik olan sözlər, kəlmələr, ifadələr poetik libasda yenə də qarşımıza çıxır. Allah rəhmət eləsin!

Hörmət və sayqılarla:
**Mirzə Məmmədoğlu**

# "ÖZÜMLƏ MÜSAHİBƏ" RUBRİKASININ QONAĞI İRƏVAN DÖVLƏT AZƏRBAYCAN DRAM TEATRININ ARTİST HEYƏTİNİN İDARƏEDİLMƏSİ BÖLMƏSİNİN MÜDİRİ, AKTRİSA MÜDVƏR NEMƏTOVADIR



**– Oxucularımız üçün özünüzü necə təqdim edərdiniz?**

– Mən – Müdvər Nemətova Dildar qızı 26 fevral 1987-ci ildə Gürcüstan Respublikasının Qardabani şəhərində müəllim ailəsində dünyaya göz açmışam. M.Nemətov adına 3 saylı Qardabani orta məktəbi (Hazırki Qardabani 3 saylı orta məktəbi) bitirmişəm. 2005-ci ildə ADMİU-nun Teatr və Kino aktyoru fakültəsinə qəbul olmuşam. Böyük sənətkarımız rəhmətlik Kamal Xudaverdiyevin kursunda təhsil almışam. Kurs rəhbərimiz rəhmətə getdikdən sonra dəyərli sənətkarlarımız Fərhad İsrafilov və Sonaxanım Mikayılovadan ustad dərsləri almışam. 2009-cu ildə Fərqlənmə ilə universiteti bitirmişəm. Tələbə ikən görkəmli rejissorumuz rəhmətlik Rəhman Əlizadənin "Satira Teatr" studiyasında aktrisa kimi fəaliyyət göstərmişəm. Satira Teatr studiyası ilk iş yerim olub. Daha sonra rəfiqəmə iş üçün müraciət etməyə İrəvan Teatrına getmişəm və həmin gün hər birinizin tanıdığı həmyerlimiz İrəvan Teatrının keçmiş rəhbəri şair-dramaturq İftixar Piriyevin dəvəti ilə İrəvan Teatrına işə qəbul olmuşam. 2010-2011-ci illərdə İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktrisa kimi fəaliyyət göstərmişəm. 2012-2014-cü illərdə Mədəniyyət Tv-də istedadlı rejissorumuz Elşad Rəhimzadənin Bəbək Tv Teatrında aktrisa kimi fəaliyyətimi davam etdirmişəm.

2014-2015-ci illərdə dəyərli aktyorumuz İntiqam Soltanın rəhbərlik etdiyi Bakı Uşaq Teatrında (Hazırki Bakı Uşaq və Gənclər Teatrı) fəaliyyət göstərmişəm. 2016-cı ilin yanvar ayında təzədən doğma teatrım İrəvan Teatrına qayıdıb aktrisa kimi fəaliyyətimi davam etdirmişəm.

Uşaqlıq illərimdən səhnəyə, sözə və ədəbiyyata böyük marağım olub. Bu maraq zamanla peşəkar fəaliyyətimə çevrildi və həyat yolumu müəyyən etdi.

Teatr mənim üçün yalnız iş yeri deyil – ruhumun evidir. Səhnədə canlandırdığım hər obraz mənim üçün yeni bir həyat, yeni bir taledir.

Hazırda C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında Artist heyətinin idarəedilməsi bölməsinin müdiri və eyni zamanda aktrisa kimi fəaliyyət göstərirəm.

Ailəliyəm. İki qız övladım var.

**– Səhnə sizin üçün nə ifadə edir?**

– Səhnə mənim üçün danışa bilmədiklərimizin dilidir. Tamaşaçı ilə qurulan o görünməz bağ mənim üçün çox dəyərlidir.

**– Həyat və sənət arasında balansı necə qoruyursunuz?**

– Bu, asan deyil. Amma qadın həm güclü, həm də zərif ola bilir. Ailə mənim dayağımdır, övladlarım isə ən böyük motivasiyamdır. Onların sevgisi mənə səhnədə daha da möhkəm dayanmaq gücü verir.

**– Çəkildiyiniz filmlər?**

– "Bir ovuc torpaq" (nağıl – Gülyaz obrazı) (2009); "Həyat varsa" – "Axsayan ayaq" bölümü (Gülxar obrazı) (2012); "Qaynana" se-




rialı (2012); "Son hədd" – "Ağarmayan saçlar" bölümü (Aynurə obrazı) (2013); "Çaqqal nəfəsi" (Dustaq qadın obrazı) (2013); "Qisas" (2015); "Uçurum" serialı (Pərvanə obrazı) (2018); "Bir qadın" serialı (Durna obrazı) (2019-2023); "Əlvida xoşbəxtlik" serialı (Gülnaz obrazı) (2024-2025); "Yad qohumlar" serialı (Elmira obrazı) (2025-2026).

**– Özünüzü üç sözlə necə ifadə edərdiniz?**

– Səmimi. Güclü. Sədaqətli.

**– Gələcək planlarınız?**

– Sənətdə daha dərin, daha yaddaqalan obrazlar yaratmaq və qadın obrazlarının gücünü tamaşaçıya daha dolğun şəkildə çatdırmaq.

**– Özünüzü bir cümlə ilə necə təsvir edərdiniz?**



– Hissləri ilə yaşayan, səhnədə güclənən və susaraq da danışa bilən bir qadın.

**– Sizi ən çox nə yorur?**

– Səmimiyyətsizlik. Çünki rol oynamaq səhnədə gözəldir, həyatda yox.

**– Güclü olmağı nə vaxt öyrəndiniz?**

– Seçim qarşısında qalanda və geri çəkilməməyi seçəndə.

**– Sizi tanımayanlara özünüz haqqında nə deyərdiniz?**

– Məni tələsik oxumasınlar. Mən ilk baxışdan başa düşülən deyiləm.

**– Bu gün özünüzə nə demək istərdiniz?**

– Dayanma. Sən düz yoldasan.

**– Sabah üçün bir arzu?**

– Sağlamlıq, səhnə və qəlb rahatlığı. Qalanı yoluna düşür.

Bu gün özümə baxanda görürəm ki, yolum asan olmayıb, amma hər addım məni daha möhkəm edib. Mən hissləri ilə yaşayan, sənətinə sadiq və hər zaman inkişaf etməyə çalışan bir qadınam. Və inanıram ki, insan öz yoluna sevgi ilə davam edirsə, gec-tez işıq mütləq görünür.

**– Sonda nə demək istərdiniz?**

– Mənə belə bir fürsət verdikləri üçün "Yeni yol" qəzetinə və dəyərli sinif yoldaşım Azər Musaoğluna təşəkkür edirəm. Mənim üçün çox xoş oldu. İşlərinizdə uğurlar!

***Qeyd edək ki, "Özümlə müsahibə" rubrikasında sual verən də, cavab verən də eyni adam olur. Sualları müsahib özü seçir. Müsahibədə heç bir senzuraya yol verilmir və olduğu kimi dərc edilir.***

# EPŞTEYN BİABIRÇILIĞI



Çox güman ki, son günlərdə Qərbdə baş verənlər, yaşanan qalmaqallar, Epşteyn sənədləri haqqında eşitməyən, bu haqda danışmayan qalmadı. Bu məsələ haqqında mən də öz fikirlərimi bölüşmək istədim. Ancaq gəlin ilk əvvəl keçmişə nəzər salıb bir az Epşteynin kim olduğuna baxaq.

Cefri Epşteyn 1953-cü ildə ABŞ-də dünyaya gəlir. O, bir müddət müəllimlikdən sonra maliyyə sektoruna keçir. Qısa müddətdə varlanır və mənşəyi tam aydın olmayan böyük sərvət toplayır. Beləcə, ABŞ-nin elit təbəqələrinə daxil olur. Nüfuzlu siyasətçilər, bir sıra məşhurlar və iş adamları ilə əlaqələr qurur. 1988-ci ildə Karib dənizində bir adanı satın alır və həmin adaya öz adını verir – Epşteyn adası. Tez-tez öz dostlarını, siyasətçiləri, məşhurları, qısası, nüfuzlu şəxsləri adasına dəvət edərək qonaqlıqlar təşkil edir.

2005-ci ildə Epşteyn 14 yaşlı bir qızı cinsi istismar etdiyini ittiham edən valideynlər tərəfindən şikayət edilir. Bu, polisin onun əleyhinə araşdırma başlatmasına səbəb olan ilk rəsmi şikayət idi. Aparılan araşdırmalardan sonra məlum olur ki, Epşteyn onlarla başqa yetkinlik yaşına çatmamış qızları da cinsi istismara məruz qoyub. Bütün bunlar daha geniş bir istintaqa təkan verdi. İstintaq zamanı ortaya çıxır ki, Epşteyn qızları masaj və digər xidmətlər üçün pulla cəlb edirmiş. O, 2006-cı ildə təslim olur.

2008-ci ildə isə prokurorluqla mübahisəli bir “ittihamı etiraf etmə razılaşması” imzalayır. BBC xəbər verir ki, o, azyaşlıları fahişəliyə cəlb etməkdə günahını etiraf edərək, əleyhinə bir çox sübutların olmağına baxmayaraq, cəmi 18 ay həbs cəzası alır. Cəzanın maraqlı tərəfi də o idi ki, Epşteynə həbsdə olduğu müddətdə həftədə 6 gün, gündə 12 saat ofisinə işə getmək icazəsi verilir. Belə olduqda da bir çox qurban artıq danışmağa cəsarət etmir, susur. Media və hüquq müdafiəçiləri bu işi yenidən gündəmə gətirməyə cəhd edir, amma təəssüf ki, gücləri çatmır. Bu hadisə cəmiyyətə bir daha göstərir ki, yüksək status və əlaqələr ədaləti susdura, cinayətləri isə görünməz edə bilir.

Daha sonra 2009-cu ildə 21 yaşlı meksikalı Qabriela adlı model şəhərin görkəmli otellərindən birinin qabağında qışqıraraq psixoloji sarsıntı keçirir. O, ağlayaraq “içəridə insan əti yeyirlər, kömək edin, mən bilmirdim, xilas edin” deyərək qışqırmağa başlayıb. Ətrafdan qızı kameralara çəksələr də heç kim yaxınlaşmır. Dəli adlandırılaraq o gecə polis tərəfindən aparılan modeldən bir daha səs-soraq çıxmayıb.

Nəhayət, 2019-cu ilin iyul ayında Epşteyn federal səviyyədə yenidən həbs edilir. Ona azyaşlıların cinsi alveri və şəbəkə yaratmaq ittihamları irəli sürülür. Avqust ayında Nyu-York həbsxanasında ölü tapılır. Rəsmi məlumatlara görə o, intihar edib. Lakin həmin gün kamera nasazlıqları, nəzarət boşluqları kimi bir çox faktlar ictimai şübhələri artırır. Onun ölümü müəmmalı olaraq qalır.

2020-2023 illərdə Epşteynin köməkçisi Maksvel mühakimə olunur və 20 il həbs cəzası alır. Bu, Epşteynin şəbəkəsinin real olduğunu hüquqi olaraq təsdiqləyən əsas mərhələ sayılır. Epşteynin nüfuzlu insanlarla əlaqələri “kəşfiyyat əməliyyatı” şübhələrini də artırdı. Çünki Maksvelin atası israilli “Mossad” kəşfiyyatçısı idi. Əlbəttə ki, bu, sadəcə öz təsdiqini tapmamış bir iddiadır. 2024–2026-cı illərdə məhkəmə qərarları ilə minlərlə səhifə sənəd ictimaiyyətə açıqlanır. Uçuş siyahıları, videolar, şəkillər, yazışmalar, şahid ifadələri yayımlanır.

Hər kəsi tək bir sual maraqlandırır: o adada nələr yaşandı?

Epşteyn adını daşıyan adanı azyaşlı qızların cinsi istismarı və insan alveri üçün bir “mərkəz” kimi istifadə etdiyi bildirilir. İddialara görə, qızlar adaya şəxsi təyyarə və helikopterlərlə gətirilir, pasportları əllərindən alınaraq əsir saxlanılırdı. Şahidlərdən birinin dediyinə görə, 15 yaşında olarkən adadan üzərək qaçmağa çalışıb. Lakin Epşteynin silahla onu hədələyərək otağa kilidlədiyini ifadə edib.

Adada dünyanın bir çox tanınmış siyasətçilərinin, ölkə başçılarının, iş adamlarının və ekranlarda sevərək izlədiyimiz məşhurların qonaq olduğu, bəzilərinin bu cinayətlərdə birbaşa iştirak etdiyi, bəzilərinin isə onlara şahidlik etdiyi iddia olunur. Qonaqlara burada azyaşlı uşaqlar təklif olunur. O pedofillər də uşaqlara qarşı hər cür alçaq fantaziyalarını həyata keçirirlər. Bu cinayətlər cinsi istismardan tutmuş insan əti yemək, qanını içmək, azyaşlılara hər cür işgəncə etmək, körpələri parçalamaq, orqanlarını çıxartmaq, hətta bağırsaqlardakı tullantıları yemək kimi bir çox yaza bilmədiyim iyrəncliklərlə doludur.

Epşteyn adasında yaşanan azyaşlıların cinsi istismarının səbəbi təkcə pedofiliya deyil. Vacib məqsəd “BAAL”a sitayiş, onun tələblərini yerinə yetirməkdir. Baal Əhdi-ətiqə görə, Cəhənnəmin ilk və ən baş kralı olaraq qəbul edilən, hətta Qərbi idarə edən xristian bir iblisdir. Sözügedən uşaq istismarı, cinayətlər, körpələrə işgəncə vermək – bunların hamısı Baala sitayiş üçündür. Çünki bağlılıqlarını bağışlanmaz günahlarla bildirməlidirlər. Baala sitayişin məqsədi Hz. İsa və Hz. Mehdinin dünyaya təkrar gəlişini sürətləndirməkdir. Onların inancına görə, bu şəriətin üzvləri qiyamət günü kainat yox olduqdan sonra Baal ilə birgə Cəhənnəmdə qalacaqlar. Qısası, cahillikdir.

Əslində, nə cahillik, nə pedofiliya, nə də başqa bir şey nəticəni dəyişmir. Olan azyaşlılara, körpələrə olub. Bunun tək adı var, vəhşilik! İnsan əti yeyib, qanını içmək nə deməkdir? Bu, vəhşilikdən də betərdir. Bəlkə, vəhşilik adlandırmaq bu hadisələri yumşaldır, amma buna başqa ad tapa bilmirəm. Bu haqda ilk dəfə oxuyub, araşdıranda dəhşətə gəldim. Biz necə bir dünyada yaşayırıq? Ucqar bölgələrdə yaşayanlar üçün Qərb ölkələrini görmək bir xəyaldır. Xəyallarımızı bəzəyən ölkələrdə azyaşlılar bunları yaşayırsa, orada mədəniyyətdən, azadlıqdan söz gedə bilməz.

İndi bütün valideynləri bir sual boğur və bu sual təkcə narahatlıq yox, eyni zamanda qorxu da yaradır. Övladlarını bundan sonra kimə etibar edəcəklər? Cəmiyyətin hörmətli, təhlükəsiz və nümunəvi saydığı simaların arxasından bu qədər çirkab çıxarkən etibar anlayışı tamamilə sarsılır. İnsan artıq qapını kimin üzünə açacağını, uşağını kimin yanına buraxacağını, kimə əmanət edə biləcəyini bilmir.

Bu qədər zəhərlənmiş bir dünyada sağlam bir gələcək qurmaq valideynlər üçün getdikcə mümkünsüz bir mübarizəyə çevrilir. Çünki təhlükə artıq qaranlıq küçələrdə yox, bəzən parlaq salonlarda, nüfuzlu insanların kölgəsində gizlənir. Ən ağır sual isə budur: övladları necə qorumaq olar? Qadağalarla, qorxutmaqla, yoxsa gözlərini heç vaxt yummamaqla? Valideynlər bu gün təkcə övlad böyütmür, onlar eyni zamanda görünməyən təhlükələrə qarşı səssiz, fasiləsiz bir müharibə aparırlar. Və bu müharibədə ən böyük silah diqqət, maarifləndirmə və həqiqəti görməkdən qorxmamaqdır.

Epşteyn sənədləri açıldıqca təkcə adlar yox, illərlə qurulan yalan sistemlər də çılpaq şəkildə üzə çıxır. Hər yeni fakt gücün və nüfuzun arxasında gizlənən həqiqəti bir az da ifşa edir. Adı hallananların bir qismi özlərini xəbərsiz, qurban və ya səhv başa düşülmüş kimi təqdim etməyə çalışır, digərləri isə məsuliyyəti başqalarının üzərinə atır. Qısası, hər kəs batmaqda olan gəmidən ilk tullanan olmaq istəyir.

Amma onların ən böyük yanlışı elə burada, susmağın əbədi olacağına inanmaqdadır. Tarix dəfələrlə sübut edib ki, pulla örtülən həqiqət, hədə-qorxu ilə boğulan səs və güclə gizlədilən cinayət gec-tez gün üzünə çıxır. Vaxt keçə bilər, sənədlər gec açıla bilər, ədalət ləngiyə bilər, amma yox olmaz. Çünki həqiqət səbirlidir. O, səssizcə gözləyir və ən zəif anda qapını döyür. O qapı açıldıqda isə nə ad, nə qazanılan uğur, nə də şöhrət insanı xilas edə bilir.

**Afaq Azər**

# KƏDƏRİN BAĞLADIĞI DOĞMALIQ



Mən həmişə hər kədərdə bir sevinc, hər sevincdə bir kədər axtararaq şeytana qalib gəlmək istəmişəm. Bəzən böyük sevinclərdən qorxmuşam ki, şeytan qısqanar. Ən kədərli anlarda isə o qaranlıqda qığılcım boyda da olsa bir işıq tapıb təskinlik tapmışam.

Üç il əvvəl Türkiyədə baş verən zəlzələ ümumi kədərimiz idi. Eyni zamanda təbiətin, bəlkə də həyatın göz qırpımı tezliyində edəcəklərini bir daha xatırladıq. Hadisələrin gedişatı və mənəvi dayağından yazmıram, çünki hamımıza bəllidir. Məni həm sevindirən, həm kövrəldən, həm də düşündürən bilirsiz nə olmuşdu? –Aksioma olan arvad söhbəti.

Məktəbdən gəlirdim, yolda arvadlar gap edirdilər:

– “Ağız, hamı Türkiyəyə yardım yolluyur. O yazıq Suriya, İran da pis gündədir. Deyəsən bizlərdən oralara elə kömək-zad getmir, eləmi?”

İkinci qadın bacılığının sözünü ağzında qoydu:

– “Sənin də yığvalın ağ gəlsin. Az, bə bilmersənmi Türkiyəynən biz qağayıq, qoy onların da öz qağaları yardım yollasın”.

Çox təəssüf ki, yoluma davam etdim, “ekspertlərin” maraqlı analizlərinin davamını dinləyə bilmədim...

“Qulpundan çıxanlardan” Türkiyədə zəlzələdən zərərçəkən həmmillətimizə yardım yollayan bu sadə qadınlar mənə çox xoş təsir bağışladılar. Yəqin heç vaxt Türkiyənin o biri başında yaşayan o insanlar bilməyəcəklər ki, Gürcüstanda olan Borçalı kasabasında (onlar belə adlandırır), uzaq bir kənddə bu sadə ev qadınları “qulpundan çıxan” ianəylə və hətta uşağının libasını bölməklə doğmaları bildikləri qağalarına mənəvi dayaq olmağa çalışırdılar. Yəqin köhnə Sovet avtomobilinə yorğan-döşək yükləyən soydaşımız yadınızdadır. Əlbəttə, biz Gürcüstan azərbaycanlıları da biganə olmadıq. Əl arabasında məişət əşyaları aparan qaraçöplü qadın da gündəmdə idi. Əlbəttə, ən böyük yardım heç nədən hər şey etməkdir. Biz bunu etdik!

Məktəblərdə müəllimlər maaş alan kimi siyahı təşkil etdilər, şagirdlər, tələbələr könüllü qoşuldular, hər kəs bacardığından büdcə yaratmağa çalışdı. Kəndlərimiz isə evindən yorğandan geyimə, kim nə bacardı etdi...

Bax, dediyim kədərin içindəki sevinc bu idi. İnsanlar həyatın olacaqlarını dərk edərək nəinki insanlaşır, hətta millətləşirdi. Yadıma uşaqlıqda yaşadığım, dövrünə görə dərindən anlamadığım, amma yaddaşımda qalan xatirələr düşdü. Anam Bakıdakı “mitinqçilərə” yardım boxçası yollayanda mənim sevdiyim balı banka ilə qutuya qoymuşdu... “Biz sonra alarıq, onlar soyuqdadılar, qoy xəstələnməsinlər” demişdi. Düşünürdüm yəqin anam onları tanıyır, yoxsa niyə “xalxın uşaqları” üçün belə narahat olsun ki. Sonra gördüm tək anam yox, bütün qohumlar, tanışlar üçün onların hamısı qohum imiş.

Mən o gündən bu günə qədər xalqımızı millət olaraq iki dəfə belə həmrəy gördüm. Azadlıq hərəkatı dövründə o vaxtkı düşüncəmi analiz etsəm yalan olar, çünki danışılanları xatırlayıram. Azərbaycanda II Vətən müharibəsi və Türkiyədəki zəlzələ mənə qürurverici hisslər yaşatdı. Əlbəttə, yazdığım kimi, kədərə qatlanmaq üçün işıq yolu axtarırdım.

44 günlük müharibədə Xudayarlar üçün birgə göz yaşı tökdük, hər qarış geri alınan Azərbaycan torpağına birgə sevindik. Nə fərqi var haralıyıq – gəncəlisən, göyçəlisən, ərdəbillisən, dərbəndlisən, əsas o idi ki, həmdərd idik. Biz borçalılar Qarabağı görməmişdik, olmamışdıq, bəlkə də çoxumuzun oradan heç tanışı da yox idi, amma hamımız qarabağlı idik, ümumiliklə qələbə xəbəri gözləyirdik, aldıq da, hərbin bir tərəfi də birlik idi. Yazmışdım axı, şeytan qısqanır. Bu doğmalığımız da tezcə “korşaldı”.

Türkiyədə baş verən zəlzələ biz borçalılar üçün də çox kədərli oldu. Azərbaycan başladığı yardım kampaniyasına əvvəl biz müəllimlər qoşulduq, sonra maliyədə, xəstəxanalarda işləyən xalqımızın nümayəndələri, hətta könüllü olaraq tələbə və şagirdlər də qoşuldular. Libasdan oyuncağa, pul yardımına qədər kimin “qulpundan” nə çıxdı yardımçı olmaq istədi. Bəli, biz kədərimizə birgə qatlandıq. Kimliyimizdən, təhsilimizdən, sosial təbəqəmizdən asılı olmayaraq yenidən həmdərdimizə həmrəy olduq. Nar çubuqları kimi, kimsə bizə dəst halında qalib gələ bilməz deyərkən şeytanı da qorxuduruq. Biz belə olanda necə gözəl oluruq, bəs niyə sonra belə birtəhər oluruq. Gərək bizi doğmalaşdırmaq üçün mütləq nəsə baş verəmi yəni?! Olmazmı həmişə kədərimizin yaratdığı doğmalıqda qalaq. Doğmalıqdan uzaqlaşdıqca bədliyi özümüzə yaxınlaşdırırıq. Pis hadisələrdə yenidən doğmalaşırıq. İnanın ki, elədir! Bəs Sabir yazırdı ki, çirmənirik keçməyə çay gəlməmiş...

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# YEMƏKLƏ DOYMAYAN YEMƏYİN ŞƏKLİNİ ÇƏKMƏKLƏ DOYMAZ



Əvvəllər şəkil paylaşmaq sadəcə xatirə üçün idi. İnsanlar şəkilləri çəkirdilər ki, illər sonra baxıb o günlərin xatirəsini yad etsinlər. İndi isə vəziyyət tamamilə dəyişib. İnsanlar yedikləri yeməklərin belə şəkillərini paylaşırlar. Bu, artıq xatirə deyil, sanki bir elan və ya nəyinsə nümayişdir. Elə bil insan yemək yemir, sadəcə yediklərini kiməsə sübut edir. Çörək yeyərkən, su içərkən, hətta qaşığı qaldırarkən belə paylaşılır. Yemək yox, bir “yayım” prosesinə çevrilib. Bəzi insanlar canlı yayım açıb yemək yeyirlər. Süfrə onlar üçün nahar yeri deyil, tamaşa meydanına çevrilib. Qaşıq havaya qalxır, izləyici sayı artır. Sanki yemək yeyən insanı birinci dəfə görürlər. Bəzən hətta belə şərhlər də olur: “Gələn dəfə filan yeməyi də yeyərsən”. Elə bil bu paylaşımlar başqalarını doyurur, özü isə doymur. Yemək ağıza yox, kameraya gedir. Adi su içmək belə görünmək üçün vacib sayılır. Sanki doymaq üçün yox, diqqət toplamaq üçün yeyirlər. Qarın doysa da, eqo ac qalır. Yemək soyuyur, amma paylaşım isti qalır. Baxan doyur, yeyən doymur, amma hamı görünmək yarışındadır. Həqiqətən də bilmirlər ki, nə ilə gündəmə gəlsinlər.

Yemək, əslində, qarın üçündür, kamera üçün yox. Su susuzluq üçündür, status üçün yox. Amma bu gün bəzi adamlar var ki, yeməyi ağızla yox, telefonla “dadırlar”. Süfrəyə oturan kimi ilk baxdıqları duz qabı yox, kamera bucağı olur. Qaşığı götürməzdən əvvəl filtr seçirlər. Sanki aşpaz anaları, özləri, həyat yoldaşları yox, montaj proqramıdır. Halbuki süfrə paylaşmaq üçün yox, bölüşmək üçündür. Süfrənin bərəkəti şəkil çəkiləndə yox, pay veriləndə artır.

Bizim mədəniyyətimizdə “göz haqqı” adlı bir anlayış var. Bir tikə çörək yeyərkən belə düşünürsən ki, bəlkə kimsə baxır, bəlkə kiminsə ürəyi çəkir, bəlkə imkanı yoxdur. Sosial şəbəkələrdə ard-arda yemək paylaşımları edənlər bəzən bunu unudurlar. O şəkillərə baxanların arasında cibində pulu olmayanlar, dietada olub yemək istəyi ilə mübarizə aparanlar, hamilə olub ürəyi çəkən, amma ala bilməyənlər də var. Birinin sadə paylaşımı başqasının arzu və istəyi ola bilər. Paylaşım sahibləri isə bunu hiss etmir. Çünki onlar üçün yemək qida deyil, bir kontentdir; süfrə qonaqlıq üçün deyil, dekorasiyadır; çay süfrəsi istirahət deyil, materialdır. Onlar yeməyi yeyib qurtarmırlar, paylaşana qədər gözlədib saxlayırlar. Yemək soyuyur, amma paylaşım həmişə olduğu kimi isti qalır.

Ən maraqlısı da odur ki, bu paylaşımların çoxu yadda qalmır. Dünən paylaşılan kabab bu gün unudulur, bu gün paylaşılan tort sabah itib gedir. Amma yenə də paylaşılır. Çünki məqsəd yadda qalmaq yox, görünməkdir. Görünmək ehtiyacı isə doymaq bilmir. Nə qədər paylaşsan da yenə paylaşmaq istəyirsən. Bu aclıq kimidir, amma qarın yox, diqqət aclığı...

Köhnə vaxtlarda insanlar süfrəyə oturanda “nuş olsun” deyərdilər. İndi isə sanki “bəyənin” deyirlər. Əvvəllər yeməkdən sonra şükür edilərdi, indi şərh gözlənilir. Süfrə duasını bildiyimiz kimi, indi alqoritm duası var. Belə ki, paylaşım çox görünsün, çox bəyənilsin, çox paylaşılsın. Əlbəttə, paylaşmaq günah deyil. Yemək gözəldirsə onu göstərmək də olar. Problem yeməyin paylaşılması yox, həyatın paylaşım naminə yaşanılmasıdır. İnsan yeməyi yemək üçün yox, paylaşmaq üçün yeyirsə artıq süfrə məqsəd yox, vasitə olur axı. Vasitə çoxaldıqca isə həyatın dadı azalır.

Bəlkə də məsələ ondadır ki, biz yeməyi qarınla yox, eqo ilə yeyirik. Ona görə doymaq bilmirik. Qarın doyur, amma eqo həmişə ac qalır. Eqo ac qalanda isə telefon işə düşür, kamera açılır, şəkil çəkilir və dünyaya yenə bir boşqab yemək şəkli ilə xəbərdar edilir. Sanki demək istəyirlər ki, “baxın, mən də yemək yeyə bilirəm”.

Kaş bir gün niyyətlər çəkiləydi. Kaş bir gün süfrələrin şəkli yox, süfrələrin bərəkəti paylaşılaydı. Kaş bir gün insanlar yeməyi göstərmək yox, bölüşmək həvəsinə düşəydi. Onda nə göz haqqı qalardı, nə həsrət, nə də boş yerə nümayiş. Çünki süfrənin əsl şəkli kamerada yox, insanın vicdanında çəkilir.

**Validə Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 FEVRAL 2026-Cİ İL № 03 (243)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## PARLAMENT MƏKTƏBLƏRDƏ VƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ HƏYATA KEÇİRİLƏCƏK DƏYİŞİKLİKLƏRİ TƏSDİQLƏYİB



Gürcüstan Parlamenti ümumi və ali təhsil istiqamətində dəyişiklikləri üçüncü dinləmədə rəsmiləşdirib.

***Məktəblər üçün sonrakı dəyişikliklər təsdiqlənib:***

• Gürcüstanda ümumi təhsil ən az 11 il və ən çox 12 il olacaq. Ümumi təhsilin yenə üç pilləsi olacaq: ibtidai, baza və orta pillə.

• 15 sentyabra qədər 6 yaşı tamam olan uşaqlar birinci sinfə qeydiyyat oluna biləcəklər.

• Ümumi təhsilin ibtidai pilləsində şagirdlərə məktəbli forması geyinmək məcburidir.

• Dərsliyin qrifləşdirilməsi qaydası ləğv olunur. Çünki nazirlik dərslikləri özü hazırlayacaq, onun nəşrini təmin edəcək və şagirdlərin pulsuz, müvəqqəti istifadəsi üçün məktəblərə verəcək.

***Ali təhsil istiqamətində sonrakı dəyişikliklər təsdiqlənib:***

• "Ali təhsil haqqında" Gürcüstan qanunundan müəllimin hazırlanmasının inteqrasiya edilmiş bakalavr-magistratura tədris proqramı çıxarılacaq. Bunun məqsədi müəllimin hazırlıq sisteminin optimizasiyası, tələbə istiqamətlənmiş təhsil modellərinin gücləndirilməsidir.

• Dövlət tərəfindən təsis edilmiş universitetlərin reorqanizasiya proseslərinin hüquqi aydınlığı və reorqanizasiya prosesinin effektiv, şəffaf həyata keçirilməsi təmin ediləcək.

• Akademik heyətin siyahısına aparıcı professor vəzifəsi əlavə olunacaq. Eləcə də qeyd olunan vəzifəyə sahib şəxsin akademik şuraya üzv olması və dekanın seçilməsi prosesində iştirak etmək hüquqları tənzimlənəcək.

## BİRİNCİ SİNFƏ QEYDİYYAT YAŞININ DƏYİŞDİRİLMƏSİ NƏYƏ TƏSİR EDƏCƏK?



2026-2027-ci tədris ilində məktəbə qeydiyyat yaşı yenidən dəyişdirilib və 15 sentyabra qədər 6 yaşı tamam olmuş uşaqlar birinci sinfə qeydiyyat oluna biləcəklər. Parlament artıq dəyişikliyi təsdiq edib və qanun qüvvəyə minən kimi tədris ilinin başlanğıcında birinci siniflərin sayı azalacaq. Çünki bugünkü göstəricilərə əsasən, birinci sinfə 31 dekabra qədər 6 yaşı tamam olan uşaqlar qeydiyyat olunurdula.

Dəyişikliklərlə bağlı yeni qanun layihəsinin izahatında qeyd olunub ki, birinci sinfə gedəcək şagirdlərin sayının azalması məktəb dərslikləri və "Mənim ilk kompüterim" proqramının xərclərini də azaldacaq.

***"Birinci sinif şagirdlərinin sayının azalması büdcə xərclərinin bir hissəsinin azalmasına səbəb olacaq. Çünki məktəb dərslikləri və "Mənim ilk kompüterim" proqramı üçün xərclər də azalacaq.***

***2026-2027-ci tədris ilinin qəbulu zamanı da uşaq sayı azalacaq, ancaq bu say gələn tədris ilinin qəbulunda bölünəcək, ümumilikdə 8000 uşaq azalacaq.***

***"Mənim ilk kompüterim" proqramının xərcləri 5,9 milyon lari azalacaq. Vauçer maliyyələşdirməsi təxminən 4 milyon (8000x500=4 milyon (vauçerin təxmini dəyəri) lari azalacaq. Məktəb dərsliklərinin xərci isə dərsliklərin azalması kimi faktorlardan asılıdır.***

***Yerli özünüidarəetmə orqanlarının xərcləri qismən artırılacaq. Çünki uşaqlar cari ildə birinci sinfə gedə bilməyəcəklər (təxminən 8000 uşaq), məktəbə hazırlıq proqramlarına qoşulacaqlar. Bu isə yerli özünüidarəetmə orqanlarının səlahiyyətidir. Qeyd etmək lazımdır ki, bağça məcburi deyil və həmin xərclərin miqdarı məktəbə hazırlıq proqramlarına qoşulmaq üçün müraciətlərin sayı ilə əlaqədardır"*** – izahatda deyilir.

## 2026-CI İLDƏ DÖVLƏT UNİVERSİTETLƏRİNİN QƏBUL ELAN EDƏCƏYİ İXTİSASLAR MƏLUMDUR



Gürcüstan hökuməti 2026-cı ildə dövlət universitetlərinin qəbul elan edəcəyi ixtisas istiqamətlərini universitetlər üzrə açıqlayıb. Siyahı fevralın 12-də hökumət administrasiyasında təhsil naziri tərəfindən təqdim olunub.

"Dövlət universitetlərində kvotalar ali təhsil islahatı konsepsiyası ilə müəyyən edilmiş "Bir şəhər – bir fakültə prinsipi" əsasında, əsasən universitetlərin ənənəvi profili nəzərə alınmaqla bölüşdürüləcək".

***Universitetlərə əsasən qəbul elan ediləcəyi istiqamətlər bu cürdür:***

**İvane Cavaxişvili adına Tbilisi Dövlət Universiteti** – Dəqiq və təbiət elmləri; pedaqogika istisna olmaqla humanitar elmlər; hüquq; iqtisadiyyat və biznesin idarə edilməsi; sosial və siyasi elmlər.

**Gürcüstan Texniki Universiteti** – Mühəndis-texniki fənlər üzrə qəbul elan ediləcək.

**Tbilisi Dövlət Tibb Universiteti** – Tibb ixtisasları üzrə qəbul elan ediləcək.

**İlia Dövlət Universiteti** – Pedaqogika proqramları və ABET akkreditasiyasına malik STEM ixtisasları üzrə qəbul elan ediləcək.

**Suxumi Dövlət Universiteti** – Aqrar ixtisaslar; gürcü-abxaz dili və ədəbiyyatı; pedaqogika ixtisasları üzrə qəbul elan ediləcək.

**İncəsənət universitetləri və İdman Universiteti** – Müvafiq ixtisaslar üzrə tələbə qəbul edəcəklər.

**Batumi və Kutaisi universitetləri** – Çoxfunksiyalı yükünü qoruyub saxlayacaq.

**Zuqdidi, Qori, Axaltsixe və Telavi universitetləri** – Burada əsas diqqət aqrar ixtisaslara, turizm istiqamətinə və pedaqogikaya yönəldiləcək.

Hazırda aqrar istiqamət müvəqqəti olaraq Gürcüstan Texniki Universitetində qalır və qəbul da Texniki Universitetin adı ilə elan ediləcək. Lakin yaxın vaxtlarda reorqanizasiya prosesi başlanacaq və bunun nəticəsində bir neçə ay ərzində aqrar istiqamət Suxumi Dövlət Universitetinin tabeliyinə veriləcək. Buna uyğun olaraq, 2026–2027 tədris ilində aqrar fakültəyə yeni qəbul olunan tələbələr təhsilə Suxumi Dövlət Universitetində başlayacaqlar.

*Səhifədəki məlumatlar "etaloni.ge" və "edu.aris.ge" saytından götürülüb.*

**Gürcü dilindən tərcümə etdi:** ***Aynurə Əliyeva***

**Təsisçi:**
**"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"**

**Redaktor:** Azər MUSAOĞLU
**Yayım direktoru:** Hacı BƏKİROĞLU
**Qrafik dizayn:** Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.